M.F.Axundov
Kitabxanası

*Bizim hər birimiz - ictimai xadimlər, siyasətçilər, cəmiyyətdə nüfuz sahibləri olan insanlar çalışmalıyıq, elə etməliyik ki, gələcəkdə xalqlararası əlaqələr daha da güclənsin. Buna böyük ehtiyac vardır. Bu, sadəcə olaraq bir şüar deyildir. Sadəcə olaraq indi dəbdə olan ifadələr deyildir. Bu, zərurətdir. Biz bunu ölkəmizdə görürük.*

İlham ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti


# Ədəbiyyat qəzeti

ادبیات قزتی

www.edebiyyatqazeti.com

14 oktyabr 2011-ci il № 38 (3789) 1934-cü ildən çıxır Qiyməti 30 qəpik


*Mətbuatdan məlum olduğu kimi, oktyabrın 10-da Bakıda, "Gülüstan" sarayında "XXI əsr: ümidlər və çağırışlar" devizi ilə Beynəlxalq Humanitar Forum öz işinə başladı.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Forumun açılış mərasimində və birinci plenar iclasında iştirak edirdilər.*

*Bakı Beynəlxalq Humanitar Forumu ən geniş humanitar əməkdaşlıq məsələlərinin müzakirə edildiyi nüfuzlu bir məkandır. Mədəniyyətlər, sivilizasiyalar və konfessiyalar arasında zəngin əməkdaşlıq ənənələri olan Azərbaycan bu formatda tədbirlərin keçirilməsi üçün ideal yerdir. Forumun keçirilməsi haqqında qərar 2010-cu ilin yanvarında Bakıda keçirilən Humanitar Əməkdaşlıq üzrə Birinci Azərbaycan-Rusiya Forumunda qəbul edilmişdir.*

*Forumun işində 20-dən çox ölkənin və nüfuzlu beynəlxalq təşkilatların nümayəndələri, o cümlədən mədəniyyət və incəsənət xadimləri, aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri, ictimai xadimlər iştirak ediblər.*

*Dövlətimizin başçısı forumun açılışında nitq söylədi.*

# "Elə etməliyik ki, gələcəkdə xalqlararası əlaqələr daha da güclənsin"




*Azərbaycan Prezidenti cənab İlham Əliyev forum iştirakçılarına - hörmətli qonaqlarımıza müraciətlə dedi:*

- Mən sizin hamınızı Azərbaycanda salamlayıram. Azərbaycana xoş gəlmisiniz.

Bu gün və sabah Bakıda çox əlamətdar forum işləyəcəkdir. Foruma gəlmiş bütün qonaqlar bizim əziz qonaqlarımızdır. Əminəm ki, bu iki gün ərzində forum çərçivəsində aparılacaq fikir mübadiləsi, səslənəcək təkliflər humanitar sahədə əməkdaşlığın daha da dərinləşməsinə xidmət göstərəcəkdir.

Deyə bilərəm ki, Bakı Birinci Beynəlxalq Humanitar Forumunun keçirilməsi ilə bağlı təşəbbüsü Rusiya və Azərbaycan ziyalıları irəli sürmüşlər. Rusiya və Azərbaycan rəhbərliyi də bu təşəbbüsü dəstəkləmişlər. Deyə bilərəm ki, ölkəmizdə son illər ərzində mütəmadi qaydada humanitar əməkdaşlığa dair beynəlxalq tədbirlər keçirilir. 2008-ci ildən Bakı prosesi başlamışdır. Bakı prosesinin təməli 2008-ci ildə qoyulmuşdur. O vaxt Bakıda Avropa Şurasına üzv Ölkələrin Mədəniyyət Nazirlərinin Toplantısına biz İslam Əməkdaşlığı Təşkilatının nümayəndələrini, nazirləri dəvət etmişdik və ilk dəfə olaraq birgə beynəlxalq tədbir keçirilmişdir. 2009-cu ildə isə İslam Əməkdaşlığı Təşkilatına üzv ölkələrin nazirlərinin Bakıda keçirilən toplantısına Avropa Şurası ölkələrinin nazirləri də dəvət edilmişdi. Yəni artıq bu ənənə başlamışdı. 2010-cu ildə Bakıda Dünya Dinləri Liderlərinin Zirvə Görüşü keçirilmişdir və mən o tədbiri çox yaxşı xatırlayıram. Həm müzakirələr, eyni zamanda, qəbul edilmiş qərarlar sivilizasiyalararası dialoqun möhkəmlənməsinə dəyərli töhfəsini vermişdir. Keçən il isə paytaxtımızda, eyni zamanda, digər beynəlxalq tədbirlər keçirilmişdir. Nəhayət, bu ilin aprel ayında Bakıda Mədəniyyətlərarası Dialoq Forumunun keçirilməsi də əlamətdar hadisə kimi tarixdə qalmışdır. Yəni bu, artıq gözəl ənənədir.

Mən ümid edirəm ki, bugünkü tədbir və ondan sonrakı görüşlər və Azərbaycanda keçiriləcək növbəti beynəlxalq forumlar arzularımızı reallığa çevirəcəkdir. Arzularımız ondan ibarətdir ki, bütün dünya xalqları, bütün ölkələr bir-biri ilə daha da səmimi münasibətdə olsunlar, qarşılıqlı anlaşma daha da dərinləşsin, beynəlxalq əməkdaşlıq üçün daha da əlverişli şərait yaradılsın.

Təsadüfi deyil ki, bütün bu tədbirlər, humanitar sahədə aparılan islahatlar Azərbaycanın adı ilə bağlıdır. Çünki əsrlər boyu Azərbaycanda müxtəlif mədəniyyətlərə mənsub olan xalqlar bir ailə kimi yaşamışlar. Bütün dövrlərdə Azərbaycanda hökm sürən ictimai-siyasi quruluşdan asılı olmayaraq, bütün xalqlar bir ailə kimi yaşamışlar. Heç vaxt Azərbaycanda milli, yaxud dini zəmində heç bir qarşıdurma, anlaşılmazlıq olmamışdır. Heç vaxt ayrı-seçkiliyə yol verilməmişdir və bu gün müstəqil Azərbaycan bu ənənələrə sadiqdir.

Hesab edirəm, bizim təcrübəmiz əyani şəkildə göstərir ki, müxtəlif mədəniyyətlərə, müxtəlif dinlərə mənsub olan xalqlar mehribanlıq, sülh, əməkdaşlıq şəraitində yaşaya bilərlər. Yəni ölkəmizdə bu səpkidə keçirilən tədbirlərin ənənəvi xarakter alması təbiidir və mən çox şadam ki, dəvətimizi qəbul edib forumda iştirak edən görkəmli ictimai xadimlər bu gün bizim qonaqlarımızdır. Əminəm ki, forum çərçivəsində aparılan diskussiyalar, yaradılacaq təmaslar bizi daha da sıx birləşdirəcəkdir. İndiki zəmanədə, qloballaşan dünyada belə tədbirlərin keçirilməsinin çox böyük əhəmiyyəti vardır.

Azərbaycanın coğrafi vəziyyəti təbii ki, ölkənin inkişafına da təsirini göstərmişdir. Azərbaycan o ölkədir ki, burada mədəniyyətlər, sivilizasiyalar görüşür, birləşir. Bizim gücümüz birliyimizdədir. Milli və dini müxtəlifliyimiz bizim gücümüzü daha da artırır. Azərbaycan çoxmillətli və çoxkonfessiyalı bir ölkədir. Bütün dinlərin nümayəndələri bərabər hüquqa malikdir. Bütün dini abidələr dövlət tərəfindən qorunur, bərpa edilir və eyni zamanda, tikilir. Ölkəmizdə müstəqillik dövründə yaşanan sabitlik və dostluq abhavası əlbəttə ki, bu gün Azərbaycanı regional ölkə kimi daha da gücləndirir.

Ölkəmizdə aparılan bütün islahatlar - istər siyasi, istər iqtisadi islahatlar bir məqsədi güdür ki, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar, Azərbaycan öz gücünü artırsın və bunu etmək üçün təkcə iqtisadi islahatların aparılması kifayət deyildir. Bunu etmək üçün cəmiyyətdə çox sağlam iqlim olmalıdır. Bunu etmək üçün əlbəttə ki, Azərbaycanda bütün xalqlar həmişə olduğu kimi, mehribanlıq və əməkdaşlıq şəraitində yaşamalıdır.

Azərbaycanın tarixi və keçmişi göstərir ki, bunu etmək mümkündür. Bu gün Azərbaycan müstəqil ölkə kimi həm Avropa Şurasının, həm də İslam Əməkdaşlığı Təşkilatının üzvüdür. Azərbaycan nadir ölkələrdəndir ki, hər iki təşkilatda üzvdür və eyni zamanda, fəal üzvdür. Sivilizasiyaları, dünya dinlərini birləşdirmək, əməkdaşlığı dərinləşdirmək üçün hesab edirəm ki, bizim ölkə kifayət qədər böyük səylər göstərir. Ən önəmlisi ondan ibarətdir ki, bu səylər öz nəticəsini verməkdədir. Çünki əgər belə olmasaydı, Azərbaycanın bu sahədəki təcrübəsi maraq doğurmazdı.

Bakı prosesi 2008-ci ildən bu günə qədər uğurla inkişaf edir. Əminəm ki, növbəti illərdə bu proses çərçivəsində əlavə tədbirlərin keçirilməsi bizim işimizə böyük dəstək olacaqdır.

Bizim ölkədə bütövlükdə bütün dövrlərdə humanitar sahəyə çox böyük diqqət göstərilmişdir. Bu gün də bu sahə hökumətimiz üçün prioritet sahədir. Azərbaycanda elmin, təhsilin inkişafı, səhiyyə, mədəniyyət, idman sahələrində yaşanan inkişaf bütövlükdə humanitar sektorun inkişafına xidmət göstərir. Bu sahələr üzrə ölkədə konkret proqramlar vardır. Proqramlar icra edilir. Bu sahə gələcəkdə də prioritet olacaq və biz çalışacağıq ki, nəzərdə tutulan bütün vəzifələr uğurla icra edilsin.

Humanitar sahə hər bir ölkə üçün çox vacibdir. Əlbəttə, humanitar sahəyə daha da böyük diqqət göstərmək üçün ölkənin maliyyə imkanları da olmalıdır. Müstəqilliyimizin ilk illərində biz böyük çətinliklər içərisində yaşamışıq. Azərbaycanda həm iqtisadi, həm siyasi böhran yaşanırdı. Ola bilər ki, 90-cı illərin əvvəllərində bu sahəyə lazımi dərəcədə diqqət göstərilmirdi. Ona görə yox ki, bu diqqətdən kənarda qalmışdır. Ona görə ki, maliyyə imkanlarımız yox idi. Bu gün Azərbaycan dünya miqyasında iqtisadi cəhətdən ən sürətlə inkişaf edən ölkədir. Humanitar sahənin inkişafı əlbəttə ki, bizim üçün prioritetdir. Bu sahəni inkişaf etdirmək üçün bizdə imkanlar vardır. Sirr deyil və hamımız yaxşı bilirik ki, ölkənin gələcəyini və uğurlu inkişafını təmin edən təbii resurslar deyil, humanitar amildir. Ona görə Azərbaycanda təhsilə, elmə qoyulan sərmayə öz nəticəsini verir və verəcəkdir. Bir neçə il bundan əvvəl irəli sürülən, "qara qızıl"ı insan kapitalına çevirək tezisi artıq bu gün reallıqdır. Minlərlə Azərbaycan gənci dünyanın aparıcı ali məktəblərində təhsil alır. Azərbaycanda təhsil sahəsində aparılan islahatlar əminəm ki, yaxın gələcəkdə daha da yaxşı nəticələrə gətirib çıxaracaqdır. Bununla bərabər, elmin inkişafı, gəncləri elmə cəlb etmək üçün konkret proqramlar icra edilir. Bu yaxınlarda qəbul edilmiş "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramının icrası da bu məqsədi güdür.

Bu gün və gələcəkdə ölkələrin uğurlu inkişafını müəyyən edən elmi-texniki tərəqqidir. Bizim üstünlüyümüz ondan ibarətdir ki, Azərbaycan təbii ehtiyatlarla da zəngin olan ölkədir və biz bu ehtiyatlardan səmərəli şəkildə istifadə edirik. Yoxsulluq şəraitində yaşayanların sayı son 7 ildə Azərbaycanda 5

(Ardı 2-ci səh.)

## əlaqələr

***Məlum olduğu kimi, görkəmli şərqşünas alim, bir ömürlük zəngin tədqiqatı boyu Şərq-Qərb, ümumən dünya ədəbi-mədəni əlaqələrinin inkişafına böyük töhfə vermiş professor Aida İmanquliyevanın yüksək elmi dəyərə malik əsərləri bu gün də tamamilə aktualdır.***

***Dünya xalqları mədəniyyətlərinin dialoqu problemlərinin geniş, əhatəli müzakirəsinə çevrilən Bakı forumunun çox dəyərli materialları da hərtərəfli əlaqələr mövzusunun vacibliyini bir daha təsdiqlədi.***

***Bu günlər anadan olmasının 72-ci ilini dərin ehtiramla qeyd etdiyimiz Aida İmanquliyevanın ilk dəfə 27 ildən artıq bundan əvvəl "Ədəbiyyat qəzeti"ndə ("Ədəbiyyat və incəsənət") dərc olunmuş (1 iyun 1984-cü il) "İki böyük yazıçının eyni adlı əsəri haqda" məqaləsini məmnuniyyətlə əziz oxuculara təqdim edirik.***

***Materialda ərəb məhcər ədəbiyyatının tanınmış nümayəndəsi Mixail Nüaymənin və görkəmli rus yazıçısı İ.Turgenevin eyni adlı əsərləri - "Atalar və oğullar" - arasında paralellər aparılır.***



*Aida İmanquliyeva*

# İki böyük yazıçının eyni adlı əsəri haqda

Böyük ərəb yazıçısı Mixail Nüaymə qısa bir vaxtda Rusiyada yaşamış (1906-1911), rus ədəbiyyatı və mədəniyyətinə yaxından bağlanmışdır. O, Nazaret müəllimlər seminariyasını bitirdikdon sonra beş il Poltavadakı ruhani seminariyasında oxumuşdur. Bu dövr onun bütün yaradıcılığına, bədii-estetik görüşlərinə, dünyabaxışının formalaşmasına, bədii düşüncəsinin səciyyəsinə əhəmiyyətli təsir göstərmişdir.

Alim-şərqşünaslar içərisində ilk dəfə akademik İ.Kraçkovski M.Nüaymənin klassik rus ədəbiyyatı ilə ideya və bədii əlaqələrini qeyd etmişdir. O yazırdı: "Rus ədəbiyyatının yaxşı bilicisi, bu ədəbiyyatın klassik nümayəndələrindən tərbiyə almış, Belinski ideyalarını fikir süzgəcindən keçirib duymuş o, (M.Nüaymə - A.İ.) haqlı olaraq ən böyük ərəb tənqidçilərindən biri hesab olunur".

Rus ədəbiyyatının M.Nüaymə yaradıcılığına təsiri barədə ərəb tənqidçi-ədəbiyyatşünasları da yazırlar. Ədəbiyyatşünas doktor Məhəmməd Yusif Nəcm "Müasir ərəb ədəbiyyatında hekayə" kitabında yazır: "Cəsarətlə demək olar ki, M.Nüaymə rus ədəbiyyatı ənənələrindən tərbiyə almış, Andreyevin, Qoqolun, Turgenevin, Dostoyevskinin, Çexovun, Qorkinin əsərlərini yaxşı bilmişdir. Rus ədəbiyyatına dərindən bələdliyi ona insan ruhunu anlamağa kömək etmişdir".

Poltavada ruhani seminariyasında oxuyarkən M.Nüaymə L.Tolstoy, Turgenev, Dostoyevski, Çexov kimi yazıçıların əsərlərini birnəfəsə oxuyurdu. Belinskinin məqalələri onu xüsusilə həyəcanlandırırdı. O, böyük tənqidçini rus tənqidçilərinin başçısı, ədəbi fəaliyyətdə "həqiqətin, qüdrətin, xeyirxahlığın, gözəlliyin və yazıçı adının yüksəkliyini açıb göstərmiş" mütəfəkkir sayırdı.

Artıq görkəmli yazıçı olanda o, Rusiyadakı təhsil illərini xatırlayaraq yazırdı: "Bu, zəngin ədəbi savad və zənginləşmə illəri idi, fikrimin dolğunluq, hisslərimin alovlanması və ruhumun inkişaf vaxtı idi. Mənim ölkəmin, bütün ərəb ölkələrinin və bütün Şərqin vəziyyətinə gözlərim açıldı - bu fikir xüsusilə incəsənət

(Ardı 3-cü səh.)

## Bu sayda


- İctimai-mədəni həyat
- Nazim Hikmət - 110
- Abbas Zamanov - 100
- Anım: Məmməd Araz
- Teatr: "Məcburən doktor"
- Kitablar, rəylər
- Soraqlar. Repertuar səh.2-6

